*Zakir Ağdamlı*

# OLUM VARSA, ÖLÜM DƏ VAR

*(Avtoqəzada həyatını itirən 38 yaşlı Seyfəddin Xaləddən oğlu Ağaşirinovun əziz xatirəsinə)*

Quş kimi uçaraq tərk etdi bizi,
O gözəl insandı hər bir cəhətə.
Gözləyə bilmədi otuz səkkizi,
Ruhu tez çatdırdı özün Cənnətə.

Cənnət guşəsidi Quba yolu da,
Aldı eloğlunu öz ağuşuna.
Qoydu həsrətində sağı, solu da,
Özü bənzəyirdi Simurq quşuna.

Yolda gözləmədi sürət həddini,
Gül kimi ömrünü eylədi hədər.
Əzrayıl yarımçıq qırdı qəddini,
Bu adi ölüm yox, qəzavü-qədər.

Kəmalə xanımın baxışlarından,
Bir həsrət sallanar, bir sevinc itər.
Nihadın, Nicatın göz yaşlarından,
Üstündə qan rəngdə qızılgül bitər.

Seyfəddin taleyi Haqqdı bəzəyən,
Qəribə təsadüf payına düşüb.
Səninlə son görüş, sənin təziyən,
Müqəddəs ramazan ayına düşüb.

Dostlar, qohumların heyfsilənir,
Deyirlər bir igid getdi bu adda.
Yarımçıq bəxtinə hey gileylənir,
Yarı Bakıdadır, yarı Xudatda.



Rəhmanın , Salehin donub, bürüşüb,
Saçına dən düşüb Rauf , Samirin.
Xəqanin, Xamidin bax, ruhdan düşüb,
Ceyhun da çıxarmır səsin-səmirin.

Xoş o kəsə səbri çoxdu,
Sevinc varsa, zülüm də var.

Olmayana ölüm yoxdu,
Olum varsa, ölüm də var .

Doğulur, yaşayır, ölür,
Budu ölçü, budu qayda.
Hər bir kəsin ömrü olur,
Xeyirxah əməli boyda.

10.05.2019-cu il tarixdə, 38 yaşına bir neçə gün qalmış avtoqəzada həyatını itirən Ağaşirinov Seyfəddin Xaləddin oğluna Sadiq dostları Rəhman, Saleh, Rauf, Samir, Xəqani, Xamid və Ceyhun Allahdan rəhmət diləyir, yeri Cənnət olsun deyirlər.

"Ədalət" qəzetinin əməkdaşları da bu arzuya qoşulur: Allah rəhmət eləsin. Amin !

Ədalət 2019.- 11 may.- S.14.